**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə
prorektor v.i.e:

____________ dos. Zaur Məmmədov
"____" ________ 2025-ci il

**Fənn sillabusu**

**İxtisas:** 6004004-"İqtisadiyyat"
**Fakultə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"

**I. Fənn haqqında məlumat:**

**Fənnin adı: Beynəlxalq iqtisadiyyat** (İşçi tədris proqramı: Kafedranın 22 dekabr 2025-ci il tarixli 04 saylı protokolu ilə təsdiq edilmişdir.)

**II. Fənn haqqında məlumat:**

Kodu: İPF-B11
**Tədris ili:** IV (2025-2026). Semestr: VIII
**Tədris yükü cəmi:** 40 saat. Auditoriya yükü-14 saat: (Mühazirə 10 saat, məşğələ 4 saat).
**Təhsilalma forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**Saat:**

**III. Müəllim haqqında məlumat:**

**Adı, soyadı, elmi dərəcəsi:** *Hikmət Səlimov, baş müəllim*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a, 1 saylı korpus.
**Məsləhət saatı:** I-V günlər: saat $10^{00}$-$16^{00}$
**E-mail ünvanı:** *hikmat.salimov@bk.ru*

**IV. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

**Əsas**


1. Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz ."Beynəlxalq iqtisadiyyat", Nyu York-2018
2. H. Seyidoğlu, Uluslararası İktisat: Teori Politika ve Uygulama, 17. Baskı, İstanbul, Güzem Yayınları, 2009.
3. D. Salvatore, Theory and Problems of International Economics, 4th ed. (New York: McGraw-Hill, 1996), chs. 1, 2 (sects. 2.1 to 2.3).
4. D.Vəliyev, A.Əsədov "Beynəlxalq iqtisadiyyat", Bakı-2012


**Əlavə**


5. Волгина Н.А. «Международная экономика». Учебное пособие 2-е издание. Москва, издательсво «ЭКСМО»-2010
6. Агапова Т.А., Серегина С.Ф., «Макроэкономика» Учебник. 9-е издание Москва, издательсво «Дело и Сервис»- 2009
7. Appleyard, D. R., Field, Jr. A. J., Cobb, S. L. "International Economics", New York-2010
8. Carbaugh, R. J. "International Economics", South-Western Cengage Learning,


CamScanner ilə skan edilib

USA-2009
9. Chacholiades, M. "International Economics", New York-1990
10. Çelik, K. "Uluslararasl İktisat", Trabzon-2008
11. Karluk, S. R. "Uluslararası Ekonomi Teori ve Politika", İstanbul-2003
12. Kazgan, G. "İktisadi Düşünce ve ya Politik iktisadın Evrimi", İstanbul-1997
13. Marrewijk, C. V. "International Economics", Theory, Application, and Policy, Oxford: Oxford University Press-2007
14. Roberts, R. D. "Tercih: Bir Serbest Ticaret ve Korumacılık öyküsü", Ankara-2002
15. Viral V. Acharya, Nirupama Kulkarni, and Matthew Richardson. "Capital, Contingent Capital, and Liquidity Requirements," in Viral V. Acharya, Thomas F. Cooley, Matthew P. Richar-dson, and Ingo Walter, eds., *Regulating Wall Street: The Dodd-Frank Act and the Architecture of Global Finance*. Hoboken, NJ: John Wiley & Sons, 2011, pp. 143–180. Bazel III və Dod-Frank qanununun məqsədləri və məhdudiyyətləri barəsində açıq müzakirə.
16. Anat Admati and Martin Hellwig. *The Bankers' New Clothes: What's Wrong with Banking and What to Do about It*. Princeton, NJ: Princeton University Press, 2013. Bankların öz aktivlərini səhmdar kapitalı ilə deyil, borc kapitalı ilə maliyyəşdirməklə maliyyə kövrəkliyini genişləndirməkdə stimullarının aydın xülasəsi.
17. Alan S. Blinder. *After the Music Stopped: The Financial Crisis, the Response, and the Work Ahead*. New York: Penguin Press, 2013. 2007–2009-cu illərin qlobal maliyyə böhranının kökləri və nəticələri barəsində nüfuzlu iqtisadçının icmalı.
18. Jahangir Aziz, Steven V. Dunaway, and Eswar Prasad, eds. *China and India: Learning from Each Other*. Washington, D.C.: International Monetary Fund, 2006. İqtisadi stabilliyi və artımı təşviq etmək üçün Çin və Hindistandakı strategiyalarla bağlı məqalələr.
19. Albert Fishlow. "Lessons from the Past: Capital Markets During the 19th Century and the Interwar Period." *International Organization* 39 (Summer 1985), pp. 383–439. 1982-ci ildəki borc böhranından sonrakı müzakirələr də daxil olmaqla beynəlxalq borclanma təcrübələrinin tarixi təhlili.
20. Kristin Forbes. "The 'Big C': Identifying and Mitigating Contagion." In *The Changing Policy Landscape: A Symposium Sponsored by the Federal Reserve Bank of Kansas City*. Kansas City, MO: Federal Reserve Bank of Kansas City, 2013, pp. 23–87. Beynəlxalq bazarlar vasitəsilə yoluxucu şokların ötürülməsi barədə geniş bir təhlil.

**V. Prerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "Mikroiqtisadiyyat", "Makroiqtisadiyyat", "Azərbaycan iqtisadiyyatı" və "Ətrah mühitin iqtisadiyyatı" kimi fənlərin tədrisi zəruridir.

**VI. Korerekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Əməyin iqtisadiyyatı" fənninin tədrisinə ehtiyac vardır.

**VII. Fənnin təsviri və məqsədi:** "Beynəlxalq iqtisadiyyat" kursu beynəlxalq mikroiqtisadiyyat və beynəlxalq makroiqtisadiyyat aspektlərini əhatə edir. Burada istehsal amilləri məhsul və xidmətlərin beynəlxalq hərəkəti, beynəlxalq ticarət siyasəti, həmçinin valyuta kursları və tədiyyə balansı sferasında beynəlxalq iqtisadi fəallığın monitor formalarını öyrənir. Bu fənndə tədiyyə balansında tarazlığın təmin edilməsi üsulları və yolları təhlil edilir. Dünya bazarında rəqabət və qiymətqoyma mexanizmləri fərqli şəkildə təsir göstərir. Belə ki, istehsal amillərinin mobilliyi ayrı-ayrı milli təsərrüfatlar miqyasında olduğuna nisbətən zəif olur. Açıq iqtisadi sistemlərin fəaliyyət problemləri ümumi iqtisadi tarazlığın təmin edilməsini zəruri edir. Son illərdə dünya iqtisadi qloballaşma və inteqrasiya şəraitində müxtəlif ölkələrin iqtisadi sistemləri arasında qarşılıqlı əlaqələr güclənir. Nəhəng ölkələrin milli sərhədləri belə milli biznesi

CamScanner ilə skan edilib

izola etmir, milli investorları xarici rəqabətçilərdən qorumur. Eyni zamanda müvafiq ölkələrin iqtisadiyyatının açıqlığının təmin edilməsi ilə bağlı milli biznes üçün yeni imkanlar açır. Fənnin birinci bölməsində beynəlxalq ticarət konsepsiyaları müxtəlif ölkələrin beynəlxalq ticarət siyasəti, ölkələrarası istehsal amillərinin mobilliyi nəzəriyyələri öyrənilir. Adı çəkilən bölmələr beynəlxalq iqtisadiyyatın mikroiqtisadiyyat aspektinə aiddir. Belə ki, onlar ayrı-ayrı ölkələrə aiddir, onlara müstəqil iqtisadi vahidlər kimi baxılır.

Beynəlxalq iqtisadiyyatın digər bölməsi beynəlxalq maliyyə nəzəriyyələrinin makroiqtisadi təhli-lini özündə birləşdirir. Bu bölməyə ölkələrarası valyuta münasibətləri, həmçinin milli iqtisadiyyatlarının makroiqtisadi tarazlığına tədiyyə balansının təsirinin araşdırılması nəzərdə tutulur. Beynəlxalq iqtisadiyyatın makroiqtisadi aspektlərinə eyni zamanda milli iqtisadiyyatların ölkələrin iqtisadi siyasətinin optimallaşdırılması məqsədilə modelləşdirilməsinin geniş spektrli problemləri də daxildir.

Müstəqillik əldə etmiş ölkələrin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf problemləri xarici iqtisadi əlaqələri, onların dünya bazarına inteqrasiyası ilə iqtisadi inkişaf mexanizmi arasındakı qarşılıqlı əlaqə və asılılıq qloballaşma dövründə xüsusi aktuallıq kəsb etmişdir. Bütün bunlar insanların dünya görünüşünün, ixtisas və biliklərinin yeniləşməsini tələb edir.

"Beynəlxalq iqtisadiyyat" fənni beynəlxalq iqtisadi fəaliyyətin və beynəlxalq biznesin bütün incəliklərinin öyrənilməsi respublika təsərrüfatının bazar iqtisadiyyatı şəraitində mənfəətlə idarə olun-ması, tərəqqiyə qovuşdurulması üçün müstəsna əhəmiyyətə malikdir. Həmin biliklərin respublikanın təhsil ocaqlannda müvəffəqiyyətlə tədris edilməsi üçün müasir anlayışlara uyğun dərslik və dərs vəsaitlərinin hazırlanıb nəşr olunması olduqca vacibdir.

"Beynəlxalq iqtisadiyyat" fənni bir iqtisadi elm sahəsi kimi beynəlxalq iqtisadiyyatın meydana gəlməsi və inkişafını təmin edən iqtisadi qanunlar, qanunauyğunluqlar və onların doğurduğu obyektiv iqtisadi kateqoriyaların dialektik vəhdətini, onlar arasında meydana çıxan ziddiyətlərin kompromis həlli yollarını öyrənir.

**VIII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**IX. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal - tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal - tələbənin cavabı əsasən düzgündür.
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 6. Miqiyas iqtisadiyyatının növləri<br>7. Miqiyas iqtisadiyyatı və bazarın strukturu<br>8. Xarici miqiyas iqtisadiyyatı və beynəlxalq ticarətdə müşahidə edilən mümkün effektlər<br>9. Dinamik artan gəlirlər və inhisarçı rəqabət<br>*Mənbə: 1,2,5,6* | | |
| 3. | **Standart ticarət modeli. Xarici ticarət siyasəti. Xarici ticarət siyasətinin qeyri tarif alətləri**<br>*Plan:*<br>1. Standart ticarət modelinin mahiyyəti və əsas tezisləri<br>2. Standart ticarət modelində istehsal, istehlak və ticarət<br>3. Tarif və ixrac funksiyasının ölkənin ticarət siyasətindəki əsas istiqamət-ləri<br>4. Xarici ticarət siyasətinin məqsədləri və milli iqtisadiyyatın inkişafında rolu<br>5. Xarici ticarət siyasətinin əsas formaları: liberal xarici ticarət siyasəti və proteksionizm<br>6. Xarici ticarət siyasətinin tarif alətləri və onun tətbiqi zəruriliyi<br>7. Tarifin xərc və faydaları<br>8. Gömrük rüsumlarının təsnifatı<br>9. Proteksionizmin əsas formaları<br>10. İdxal kvotaları və onların təsirləri<br>11. İxrac subsidiyaları və onların tətbiqi zəruriliyi<br>12. Könüllü ixrac məhdudiyyətləri və denpinq siyasəti<br>13. Beynəlxalq ticarət razılaşmaları<br>14. Dünya ticarət təşkilatlarının əsas funksiyaları və təməl prinsipləri<br>15. Dünya ticarət təşkilatı üstünlüyünün pozitiv və neqativ aspektləri<br>*Mənbə: 1,6,10,11* | 2 | - |
| 4. | **Milli hesablar sistemi və tədiyyə balansı. Valyuta məzənnələri və onların müəyyən edilməsi üsulları. Pul, faiz dərəcələri və valyuta məzənnələri**<br>*Plan:*<br>1. ÜMM-un əsas komponentləri<br>2. Açıq iqtisadiyyatda milli hesablar sistemi<br>3. Milli hesablar sistemində yığım, invettisiya və xalis ixrac arasındakı qarşılıqlı təsir.<br>4. Tədiyyə balansının qruluşu.<br>5. Cari əməliyyatlar balansı və tədiyyə balansının tarazlayıcı təsiri.<br>6. Valyuta məzənnələri və beynəlxalq əməliyyatlar<br>7. Valyuta məzənnələrinə təsir göstərən amillər<br>8. Xarici valyuta bazarı<br>9. Beynəlxalq valyuta bazarında tarazlıq<br>10. Xarici valyuta bazarı modeli<br>11. Valyuta məzənnəsinin makroiqtisadi sabitliyin qorunmasında rolu<br>12. Spot-forvard məzənnə və fyuçers müqavilələri<br>13. Pul tələbi, pul təklifi və faiz dərəcələrinin formalaşması<br>14. Pul, faiz dərəcəsi və valyuta məzənnəsinin əlaqələndirilməsi<br>15. Monetar siyasət və faiz dərəcəsinin beynəlxalq valyuta bazarına təsiri<br>16. Qısa müddətli dövrdə pul təklifi və valyuta məzənnəsi<br>17. Uzunmüddətli dövrdə pul, qiymət səviyyəsi və valyuta məzənnəsi<br>*Mənbə: 1,2,4,5,6,13* | 2 | - |
| 5. | **Beynəlxalq makroiqtisadi siyasət və beynəlxalq valyuta** | 2 | - |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | sistemlərinə tarixi baxış. Maliyyə qloballaşması: imkan və böhran. İnkişaf etməkdə olan ölkələr: iqtisadi artım, böhran və islahat<br>*Plan:*<br>1. Açıq iqtisadiyyatda makroiqtisadi siyasət hədəfləri<br>2. Açıq iqtisadiyyatda valyuta trilemması<br>3. I Dünya müharibəsinə qədərki beynəlxalq qızıl standartları<br>4. Bretton Vuds sisteminin yaranma səbəbləri, mahiyyəti və yeni nəzəriyyə rejiminə keçid<br>5. Bretton Vuds sisteminin ləğvi və "üzən məzənnə" sisteminə keçid<br>6. Beynəlxalq Valyuta Fondu, hədəfləri və strukturu<br>7. Beynəlxalq kapital bazarı və ticarətin faydaları<br>8. Beynəlxalq bank işi və beynəlxalq kapital bazarı<br>9. Bankçılıq və maliyyə kövrəkliyi<br>10. Beynəlxalq bankçılığın tənzimlənməsi problemi<br>11. Beynəlxalq maliyyə bazarlarında kapital və riskin yaxşı paylanması<br>12. Gəlir, sərvət və dünya iqtisadiyyatındakı iqtisadi artım<br>13. İnkişaf etməkdə olan ölkələrin struktur xüsusiyyətləri<br>14. İnkişaf etməkdə olan ölkələrin borclanması və borc<br>15. Şərqi Asiya: uğur və böhran<br>16. İnkişaf etməkdə olan ölkələrdə baş vermiş böhranlardan öyrənilmiş dərslər<br>17. Dünyanın maliyyə "arxitekturasının" islahatı<br>18. Qlobal kapital axınlarının anlaşılması və qlobal gəlirlərin bölgüsü<br>***Mənbə: 1,2,4,5,12,14,16,17,18,19,20*** | | |
| | Cəmi: | 10 | - |

**XII. Fənn üzrə tələblər:**

Tələbə fənnin öyrənilməsi zamanı sosial sferaya daxil olan fəaliyyət sahələri arasında sosial və iqtisadi münasibətlər, cəmiyyətin inkişafında onların rolu, sosial sahələrin fəaliyyətinin tənzimlənməsində (maliyyələşməsi, idarə olunması, inkişafı) dövlətin iştirakı, dünya ölkələrində sosial sferanın tənzimlənməsinin nəzəri-metodoloji əsasları öyrədilir.

**XIII. Fənn üzrə təlimin nəticələri:**

- **Beynəlxalq iqtisadiyyat üzrə anlayışları bilmək. Qlobal iqtisadi proseslər haqqında biliklərə sahib olmaq.**
- **Müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq**
- **Beynəlxalq biznesin əhəmiyyətini dərk etmək**
- **Beynəlxalq ticarət nəzəriyələrini və siyasətlərini mənimsəmək**
- **Beynəlxalq maliyyə və maliyyə bazarları üzrə anlayışları bilmək**
-

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:** ______________________________
______________________________________________________________
______________________________________________________________
____________

**XV: Kollekvium sualları:**

1. "Beynəlxalq iqtisadiyyat" fənninin obyekti\
2. Merkantalizm və xarici ticarət
3. Müqayisəli üstünlüklər konsepsiyası və onun beynəlxalq ticarətdə rolu

CamScanner ilə skan edilib

4. Leontiv paradoksu
5. Miqiyas iqtisadiyyatının növləri
6. Tarifin xərc və faydaları
7. Proteksionizmin əsas formaları
8. İdxal kvotaları və onların təsirləri
9. ÜMM-un əsas komponentləri
10. Spot-forvard məzənnə və fyuçers müqavilələri

**XVI. İmtahan sualları:**

1. "Beynəlxalq iqtisadiyyat" fənninin obyekti
2. Beynəlxalq ticarət nəzəriyyələrinin təkamülü
3. Merkantalizm və xarici ticarət
4. Fizokratizmin əsas müddəaları
5. A.Smitin "Mütləq üstünlüklər" nəzəriyyəsi və onun əsas fəlsəfəsi
6. Müqayisəli üstünlüklər konsepsiyası və onun beynəlxalq ticarətdə rolu
7. Hekşer-Olin modelinin əsas prinsipləri
8. Leontiv paradoksu
9. Miqiyas iqtisadiyyatının növləri
10. Xarici ticarət siyasətinin əsas formaları: liberal xarici ticarət siyasəti və proteksionizm
11. Tarifin xərc və faydaları
12. Gömrük rüsumlarının təsnifatı
13. Proteksionizmin əsas formaları
14. İdxal kvotaları və onların təsirləri
15. Könüllü ixrac məhdudiyyətləri və denpinq siyasəti
16. Dünya ticarət təşkilatlarının əsas funksiyaları və təməl prinsipləri
17. ÜMM-un əsas komponentləri
18. Valyuta məzənnələri və beynəlxalq əməliyyatlar
19. Beynəlxalq valyuta bazarında tarazlıq
20. Valyuta məzənnəsinin makroiqtisadi sabitliyin qorunmasında rolu
21. Spot-forvard məzənnə və fyuçers müqavilələri
22. Açıq iqtisadiyyatda valyuta trilemması
23. I Dünya müharibəsinə qədərki beynəlxalq qızıl standartları
24. Bretton Vuds sisteminin yaranma səbəbləri, mahiyyəti və yeni nəzəriyyə rejiminə keçid
25. Bretton Vuds sisteminin ləğvi və "üzən məzənnə" sisteminə keçid
26. Beynəlxalq Valyuta Fondu, hədəfləri və strukturu
27. Beynəlxalq bank işi və beynəlxalq kapital bazarı
28. İnkişaf etməkdə olan ölkələrin struktur xüsusiyyətləri
29. İnkişaf etməkdə olan ölkələrin borclanması və borc
30. Şərqi Asiya: uğur və böhran

"Beynəlxalq iqtisadiyyat" fənninin sillabusu 6004004-"İqtisadiyyat" ixtisası (proqramı) üzrə tədris planı və işçi proqramı əsasında tərtib edilmişdir. "İqtisadiyyat və innovativ idarəetmə" kafedrasının 22 dekabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol№ 04).

**Kafedra müdiri v.i.e:** dos. G.T.Əliyeva

**Fənn müəllimi:** b/m H.F.Səlimov

CamScanner ilə skan edilib